# Tariximizə dair unikal sənədlər Milli Kitabxanaya təhvil verilib



Rusiyanın B.N.Yeltsin adına Prezident Kitabxanası Azərbaycan və Bakının tarixi ilə bağlı unikal arxiv sənədlərinin surətlərini bu il 100 illiyini qeyd edən M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasına təhvil verib.

Bu barədə AZƏRTAC-a Rusiyanın B.N.Yeltsin adına Prezident Kitabxanasının mətbuat xidmətindən bildirilib.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirova müraciət edən Rusiya Prezidenti Kitabxanasının baş direktoru Yuri Nosov qeyd edib ki, sənədlər arasında Xəzər dənizinin XVII əsrdən başlayaraq XIX əsrin əvvəlinə qədərki dövrü əhatə edən nadir xəritələri, Bakı Quberniyasının XIX əsrə aid planları, o cümlədən, Bakı şəhərinin və ona yaxın ərazilərin planları və digər materiallar var.

"Elektrikli tramvay və 1898-1900-cü illərdə Bakının işıqlandırılması planı xüsusi maraq kəsb edir. Bakıda hələ 1900-cü ildə işlənib hazırlanan və elektrik dartma qüvvəsi ilə işə düşən tramvay rabitəsinin inkişaf planları artıq inqilabdan sonra icra edilib. 1924-cü il fevralın 8-də Bakı şəhərində SSRİ üzrə ilk elektrik tramvayı işə salınıb. Qeyd etmək lazımdır ki, Azərbaycan həm də SSRİ-də ilk elektrik dəmir yolunun vətənidir. 1926-cı ildə elektriklə işləyən Bakı-Sabunçu-Suraxanı dəmir yolu xətti işə salınıb. Tarixi mənbələrə əsasən məlumdur ki, bu xəttin çəkilməsi üçün Leninqradda tikintisi başa çatdırılmamış Oranienbaumsk elektrik xəttindən sökülərək çıxarılmış relslərdən və müəyyən avadanlıqlardan istifadə edilib", - deyə Rusiya Prezidenti Kitabxanasının baş direktoru vurğulayıb.

Y.Nosov onu da diqqətə çatdırıb ki, milyondan artıq arxiv vahidinin saxlanıldığı Rusiya Prezidenti Kitabxanasının fondunda Rusiya dövlətçiliyinin, o cümlədən, daha əvvəl SSRİ-nin tərkibinə daxil olan ölkələrin tarixinə aid kitablar və dövri nəşrlər, kino xronikası, fotoşəkillər, elmi-maarifləndirici filmlər, dissertasiya avtoreferatları, arxiv sənədləri və materialları rəqəmsal formada təqdim olunur.

"Kitabxananın portalında Azərbaycan və Rusiya xalqları arasında qarşılıqlı münasibətlərin tarixinin əsas mərhələlərinə həsr olunmuş "Rusiya-Azərbaycan: qarşılıqlı münasibətlərin tarixi" kolleksiyası ilə tanış olmaq mümkündür. Bu kolleksiya Azərbaycanın diplomatik, ticarət və mədəni əlaqələri, qədim tarixə dair tədqiqatların inkişafı, habelə onun ərazisinin Rusiya İmperiyasının və Sovet İttifaqının tərkibinə daxil olduğu XIX-XX əsrlərə aid sənədləri əks etdirir.